# Gəncə memarlığı haqqında əsərin təqdimatı olmuşdur

***Gəncə şəhərinin qədim tarixi-memarlıq abidələrindən hesab edilən Karvansarayda "Gəncə memarlıq salnaməsi (XII-XIX əsrlər)" kitabının təqdimatı olmuşdur.***



Memarlıq doktoru, professor Rayihə Əmənzadənin "Gəncənin memarlıq salnaməsi (XII-XIX əsrlər)" adlı kitabının təqdimat mərasimində ziyalılar, şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov tədbirdə çıxış edərək "Nizami İli" çərçivəsində belə bir kitabın ərsəyə gətirilməsinin əhəmiyyətini qeyd etmiş və demişdir ki, bu sanballı əsər tarixçilər, xarici və yerli qonaqlar, elə hər bir azərbaycanlı üçün, heç şübhəsiz, çox qiymətlidir. Şəhər rəhbəri qeyd etmişdir ki, Gəncənin tarixinin öyrənilməsi ilə bağlı həyata keçirilən hər bir iş maraq doğurur və belə tədqiqatların davam etdirilməsi üçün şəhərdə kompleks tədbirlər həyata keçirilir.

Tədbirdə AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, "Şərq-Qərb" Nəşriyyat departamentinin direktoru Sevil İsmayılova və başqaları çıxış edərək belə bir sanballı əsərin buraxılmasında əməyi keçən hər bir kəsə minnətdarlıqlarını bildirmiş və demişlər ki, "Gəncənin memarlıq salnaməsi (XII-XIX) əsrlər" kitabı ölkəmizin ikinci böyük şəhəri olan, Cümhuriyyətimizin ilk paytaxtı Gəncənin zəngin memarlıq ənənələrindən bəhs edən sanballı bir əsərdir.

Çıxış edənlər kitabın Azərbaycan memarlığı tarixinə həsr edilmiş tədqiqat işlərinin və kitabların cərgəsində öz layiqli yerini tutacağına əmin olduqlarını dilə gətirmişlər.

Daha sonra professor Rayihə Əmənzadə çıxış edərək kitab üzərində apardığı işindən danışmış və onun təqdimat mərasiminin belə təntənə ilə keçirilməsinə hədsiz sevindiyini demiş və buna görə şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramova minnətdarlığını bildirmişdir. Müəllif əlavə etmişdir ki, "coğrafi baxımdan xüsusi mövqeyə sahib olan Azərbaycan müxtəlif dövrlərdə yadellilərin hücumlarına məruz qalmış, müharibə meydanlarına çevrilmişdir. Lakin bütün bunlara baxmayaraq, ölkə ərazisində gözəl memarlıq abidələri tikilib. Bu abidələr arasında özünəməxsusluğu və xüsusi koloriti ilə seçilən isə Gəncə memarlığıdır. İnanıram ki, "Gəncənin memarlıq salnaməsi" kitabı mütəxəssislər və memarlıq sənəti ilə maraqlananlar üçün nəzərdə tutulsa da, heç şübhəsiz, geniş oxucu kütləsinin, eləcə də xarici qonaqların diqqətini çəkəcək".

Rayihə Əmənzadə kitabın ərsəyə gəlməsində və göstərilən dəstəyə görə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramova, iş adamı Etibar Hacıhüseynova, "Şərq-Qərb" nəşriyyat evinə, o cümlədən əməyi keçən hər kəsə öz dərin təşəkkürünü bildirmişdir.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

Xalq qəzeti.- 2021.- 20 oktyabr.- S.9.